


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 133 (24.270)

*27 iyul 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev "Şimal" Elektrik Stansiyasının yeni estakadasının və su nasos stansiyalarının açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Şimal" Elektrik Stansiyasının yeni estakadasının, su nasos stansiyalarının və "Şimal" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak edib.

Əvvəlcə ölkəmizdə su elektrik stansiyaları ilə bağlı həyata keçirilən işlər barədə videoçarx nümayiş olundu.

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, son 20 ildə Xəzər dənizində suyun səviyyəsinin iki metrə yaxın aşağı düşməsi ölkənin ikinci böyük elektrik stansiyası olan və Bakının 40 faizdən artıq ərazisini elektrik enerjisi ilə təchiz edən, ümumi gücü 800 MVt olan "Şimal" Elektrik Stansiyasının işində ciddi çətinliklər yaratmışdı. Çünki suyun səviyyəsinin gündən-günə aşağı düşməsi stansiyanın soyutma suyu ilə təchiz olunmasında ciddi problem yaradırdı və ən böyük həcmdə enerji istehsal edən "Şimal-1" və "Şimal-2" Elektrik stansiyalarının yaxın perspektivdə fəaliyyətini tamamilə dayandırması qaçılmaz idi. Bu təhlükəni aradan qaldırmaq üçün təxirəsalınmaz şəkildə "AzərEnerji" ASC tərəfindən Xəzər dənizinin içərisinə doğru soyuq suyun 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluğunda estakada və 2 yerdə su nasos stansiyası tikilib. Estakadanın möhkəmliyini təmin etmək məqsədilə hər birinin uzunluğu 30 metr olan 1000 ədəd dəmir boru svay 20 metr dənizin dibinə vurulub və betonlanıb.

Qeyd edildi ki, hazırda hər birinin məhsuldarlığı 9000 kubmetr/saat olan 8 nasosdan 2-si ehtiyatda saxlanılmaqla 6 ədədi daim işlək vəziyyətdə olur. Bununla da nasoslar vasitəsilə dənizin 8,5 metr dərinliyindən götürülən aşağı temperaturda 54 min kubmetr su mövcud kanala vurulur.

Stansiyalarda SCADA sistemi tətbiq edilərək nasos və klapanların avtomatik idarə olunması və rəqəmsal mühafizəsi üçün nəzarət-ölçü cihazları, lokal idarəetmə panelləri, "PLC" idarəetmə sistemi quraşdırılıb. Həmçinin bu idarəetmə sistemi mərkəzi idarəetmə otağındakı monitorlara inteqrasiya edilib ki, bu da nasosların məsafədən işə qoşulmasına və açılmasına, avadanlıqların iş rejimlərinə nəzarət və tənzimlənməsinə, kanalda suyun səviyyəsinə nəzarətə, şandorun avtomatik açılıb-bağlanmasına şərait yaradır.

Prezident İlham Əliyevə "Şimal" Kiçik Su Elektrik Stansiyası haqqında da məlumat verildi.

Diqqətə çatdırıldı ki, Bakının Şüvəlan qəsəbəsində yerləşən, ümumi gücü 800 MVt olan "Şimal" Elektrik Stansiyasının ərazisində "AzərEnerji" ASC tərəfindən daha bir yenilik edilərək istifadə olunub dənizə axıdılan soyutma suyunun üzərində 300 kVt-lıq kiçik su elektrik stansiyası tikilib. Kiçik su elektrik stansiyasının tikintisi yerli mütəxəssislər tərəfindən aparılıb. Bu stansiya vasitəsilə il ərzində 2,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal ediləcək ki, bu da "Şimal-1" və "Şimal-2" Elektrik stansiyalarının təsərrüfat ehtiyaclarını ödəməklə daxili tələbatına sərf olunacaq. Nəticədə, bu günə qədər "Şimal" Elektrik Stansiyasının daxili tələbatına sərf olunan elektrik enerjisi qənaət edilərək ümumi sistemə ötürüləcək.

**AZƏRTAC**

*İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə ölkə başçısı dövlətimizin əsas inkişaf prioritetləri üzrə görülmüş işlər, reallaşdırılan layihələr çərçivəsində qazanılan nailiyyətləri təhlil edərək bir sıra vacib nüanslara toxundu, iqtisadi artımın gücləndirilməsini, inflyasiyanın minumuma endirilməsini qarşıya vəzifə qoydu. Dərinməzmunlu, əhatəli nitqdə diqqətçəkən əsas məqamlardan biri, deyərdik ki, birincisi heç, şübhəsiz, Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətimizin artırılması ilə bağlı icrası aparılan, planlaşdırılan layihələr və bu baxımdan müəyyənləşdirilən hədəflər idi.* ***"Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə, 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın güclənməsinə. Yəni ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir".***

## Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətin artırılması qarşıda duran iki əsas vəzifədir

Dövlət siyasətinin əsas prioritetlərindən hesab edilən Qarabağın, Şərqi Zəngəzurun bərpası barədə danışdıqda təbii olaraq Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icra əhəmiyyətini vurğulamalıyıq. Proqrama əsasən Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunan böyük qayıdış prosesləri artıq qısa zamanda reallığa çevrilir. Bu xüsusda ilk olaraq Zəngilanın Ağalı kəndinin ötən dövrdə "Ağıllı kənd" konsepsiyasına uyğun qurulmasını və soydaşlarımızın oraya mərhələli şəkildə köçürülməsini qeyd etmək lazımdır. Əgər ötən il Zəngilanın Ağalı kəndi "Böyük Qayıdış"ın ilk müjdəsi idisə, bu il Talış və Laçına qayıdış isə bu proqramın necə ciddi, dəqiqliklə hazırlandığını, surətlə və ardıcıl şəkildə gerçəkləşdiyini göstərdi. Belə ki, cari il Novruz bayramı ərəfəsində Tərtərin Talış kəndinə bir qrup əhali köçürüldü, 28 May – Müstəqillik Günündə isə Prezident cənab İlham Əliyev Laçın şəhərinə qayıdan sakinlərlə görüşdü, evlərin açarlarını onlara təqdim etdi və beləliklə birinci mərhələdə şəhərə 20 ailənin, yəni 97 nəfərin köçü baş tutdu. İyun ayında 50, iyulun 13-dən bu günədək isə 82 ailə Laçına qayıtdı. Bununla da Laçın şəhərində 152 ailənin, yəni 592 nəfərin daimi məskunlaşması təmin edildi. Müşavirədə ölkə başçısının da qeyd etdiyi kimi, ilin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər artıq beş yaşayış məntəqəsində – bir şəhər və dörd kənddə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə, Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. ***"Mən şəxsən 30 yaşayış məntəqəsinin – 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Təbii ki, ilk növbədə, infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik. Eyni zamanda yaşayış evlərinin inşası sürətlə gedir. Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq".*** Böyük Qayıdış proqramı, məskunlaşma prosesi dünya təcrübəsinə uyğun, insanların sosial-rifahı, məşğulluğu, iş imkanları, yaşayış tərzi nəzərə alınaraq aparılır. Ölkə başçısının da görüşlərindən birində bildirdiyi kimi, məskunlaşma prosesində diqqətçəkən məqamlardan başlıcası Laçında bəzi yerlərdə bir neçə kəndin sakinlərini bir yerə cəmləşdirməkdir. Çünki bu həm onların yaşaması, eyni zamanda nəqliyyat-logistika məsələlərinin həlli üçün daha əlverişlidir. Ərazi baxımından bir-birinə yaxın yerləşən kəndlərin sakinlərini bir yerə yığıb onlar üçün gözəl həyat, iş şəraiti yaradılacaq. Bütövlükdə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsinin təmin edilməsi nəzərdə tutulur. İki məktəb istisna olmaqla qalan bütün infrastruktur, inşaat işlərinin Azərbaycanın büdcəsi hesabına, dövlət şirkətləri tərəfindən həyata keçirilməsi ölkəmizin iqtisadi qüdrətinin ən bariz göstəricisidir.

Ümummilli Liderimiz Heydər Əliyev deyirdi ki, güclü ordu dövlətin müstəqilliyinin təminatçısıdır, qarantıdır. Dünyada gedən ictimai-siyasi, iqtisadi proseslərə, ölkələr arası münaqişələrə nəzər yetirdikdə də aydın olur ki, mövcudiyyətdə, müstəqil siyasət yeritməkdə güc amili olduqca ön plandadır, güclü ölkə ilə istər-istəməz hesablaşılır, onun razılığı olmadan regionda heç bir böyük layihə icra edilmir. Məhz 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə ölkə Prezidenti cənab İlham Əliyev də Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətin artırılmasını qarşıda duran iki əsas vəzifə kimi heç də əbəs yerə yanaşı, müəyyənləşdirildiyini vurğulamadı. Elə müharibədən sonra həm sərhəddən, həm də sülhməramlı qüvvələrin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindən olunan silahlı təhdidlər, təxribatlar, qanunsuz daşımalar da hərbi gücün nə qədər mühüm olduğunu, bu iki prosesin paralel getməsinin labüdlüyünü ortaya qoydu. Hərbi-siyasi iradəsini qarşı tərəfə dəfələrlə sərrast şəkildə yeridən Azərbaycan Liderinin tapşırığı və nəzarəti ilə hələ 44 günlük Vətən müharibəsi başa çatar-çatmaz ordumuzun gücləndirilməsi istiqamətində böyük işlər həyata keçirildi, ən müasir silahlar alındı, yeni hərbi birliklər yaradıldı, döyüş hazırlığının yüksəldilməsi üçün müntəzəm təlimlər keçirildi. Nəticədə, daha da qüdrətlənən Müzəffər Ordumuz "Qisas", "Qətiyyətli cavab", "Fərrux" və digər hərbi əməliyyatlarla düşmənə sarsıdıcı zərbələr vurub, nəticə etibarilə, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurmaqla dövlətimizin həyata keçirdiyi Böyük Qayıdış siyasətinə sanballı töhfələr verdi. Əgər söhbət Laçında gedən quruculuq, abadlıq proseslərindən gedirsə, xüsusi vurğulamaq yerinə düşər ki, cari il martın 30-da yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar rayonun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəkliyin, əsas və yardımçı yolların, eləcə də sərhədboyu geniş sahələrin Silahlı Qüvvələrimiz tərəfindən nəzarətə götürülməsi inşaat işlərinin daha əmin, rahat, təhdidsiz, itkisiz şəkildə icrasına yol açıb.

Müşavirədə bir neçə dəfə xüsusi vurğulanan, dövlətimizin hədəf olaraq seçdiyi əsas istiqamətlərdən sayılan Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətin artırılması ilə bağlı yekun fikir kimi əminliklə demək olar ki, Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətlər, maliyyə resursları, ortaya qoyulan siyasi qətiyyət hər iki sahə üzrə planlaşdırılan işlərin böyük uğurla vaxtından əvvəl reallaşdırılmasına imkan verəcək. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"...bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat baxımından daha da güclü olacağıq, çünki bu proses dayanmır və dayanmamalıdır. Mən demişəm, iki istiqamət üzrə – hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır biz o qədər də ayıracağıq".***

**Nail ƏSGƏROV**

# Yanlış layihələndirmənin, tikinti norma və qaydalarına əməl olunmamasının nəticəsi...

*İyulun 13-ü Naxçıvan şəhərində yeni “Ümid” yaşayış kompleksinin açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək muxtar respublikada həyata keçiriləcək inşaat layihələri, nəzərdə tutulan tikinti-quruculuq işləri barədə danışıb. Babək rayonunun Hacıvar kənd tam orta məktəbinin yeni inşa olunmasına baxmayaraq, layihənin tamamilə yararsız olduğunu, texniki-tikinti normalarının kobud şəkildə pozulduğunu, bu səbəbdən də binanın söküldüyünü bildirən səlahiyyətli nümayəndə məktəbin müasir üslubda yenidən inşa olunacağını vurğulayıb. Bu fikirlər bir neçə gün xəbər saytlarında, sosial şəbəkədə gündəmə gətirilsə də, məsələnin tam mahiyyəti açılmadı, təfərrüatlar barədə ətraflı məlumat verilmədi...*





İctimai nəzarət funksiyasını yerinə yetirən “Şərq qapısı” qəzeti olaraq biz də təhsil ictimaiyyətinin əsas diqqət mərkəzində olan, xüsusilə də hacıvarlı şagirdləri, valideynləri narahat edən bu önəmli məsələnin başvermə səbəbini, mahiyyətini ortaya çıxarmaq üçün araşdırma apardıq. Əvvəlcə Hacıvar kənd tam orta məktəbinin yerləşdiyi əraziyə yollandıq. Əyani şəkildə məlum oldu ki, artıq təhsil ocağının binası tamamilə sökülüb. Rayon təhsil şöbəsindən öyrəndik ki, 252 şagird yerlik köhnə ikimərtəbəli məktəb binası 2005-ci ildə istifadəyə verilib. Ötən tədris ilində məktəbdə 344 şagird təhsil alıb. Tədris ili başa çatan kimi isə bina sökülüb... Kənddə binanın sökülməsinin səbəbi barədə dəqiq məlumat öyrənə bilmədiyimizdən üz tutduq digər bir ünvana...

Babək Rayon İcra Hakimiyyətində söküntünün səbəbi barədə suallarımıza İcra Hakimiyyəti başçısının birinci müavini, fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət komissiyasının sədri ***Heydər Əliyev*** aydınlıq gətirdi. Komissiya sədri bildirdi ki, 2022-ci il oktyabrın 5-də yerli vaxtla $04^{21}$ radələrində baş vermiş 5,3 bal gücündə zəlzələnin yarada biləcəyi fəsadların aşkar olunması və potensial bədbəxt hadisələrin vaxtında qarşısını almaq məqsədilə Cəhri qəsəbə 2 nömrəli, Hacıvar və Payız kənd tam orta məktəblərinin binalarına viziual baxış keçirilib. Hacıvar kənd tam orta məktəbinə baxış zamanı müəyyən olunub ki, binanın sağ hissəsinin əhatə etdiyi direktor, müəllimlər, kompüter və sinif otaqlarının tavanlarında iri çatlar əmələ gəlib, sağ hissədə və döşəmədə oturma halı vardır. Faktla bağlı fotoşəkillər çəkilib, akt tərtib olunaraq həm şifahi, həm də yazılı şəkildə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinə məlumat verilib...

Məsələ ilə bağlı növbəti müraciət etdiyimiz ünvan Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi oldu. İdarənin rəisi ***Vüqar Kazımov*** bildirdi ki, daxil olan rəsmi məlumat əsasında cari ilin may ayında Hacıvar kənd tam orta məktəbinin binasına baxış keçirilib. Bina müayinə edildikdən sonra texniki cəhətdən istismara yararsız olduğu müəyyənləşib, faktlar aktlaşdırılaraq aidiyyatı üzrə təqdim olunub. Obyektin vaxtından əvvəl istismar müddətini başa vurmasına əsas səbəb kimi isə inşa edilən zaman layihələndirmənin düzgün aparılmamasını, tikinti norma və qaydalarına əməl olunmamasını göstərmək olar...

“Növbəti tədris ilində Hacıvar kənd tam orta məktəbinin şagirdlərinin təhsil məsələsi necə olacaq?” sualına isə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən aydınlıq gətirildi. Bildirildi ki, yeni bina tikilib istifadəyə veriləndək şagirdlər müvəqqəti olaraq qonşu Şəkərabad kənd tam orta məktəbində təhsillərini davam etdirəcəklər. Ötən tədris ilinə əsasən ümumi şagird sayının 511 və məktəb tutumunun 396 olduğunu nəzərə alsaq müəyyən çətinliklərin yaranacağını indidən söyləmək çətin deyil...

Hacıvar kəndində məktəb binasının sökülməsinin səbəb və nəticələrini araşdıran zaman ölkəmizdə bütün sahələrə qayğı ilə yanaşan Ümummilli Liderimiz Heydər Əliyevin ***“Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır”*** fikirlərini xatırladıq və qeyri-ixtiyari ötən ilin mart ayında Nehrəm qəsəbəsində baş verən bədbəxt hadisəni düşünərək təəssüf hissi keçirdik. Bəli, aidiyyəti təşkilatların məsələyə səhlənkar münasibəti, hadisənin vaxtında qarşısının alınmaması, tikintidə texniki təhlükəsizlik qaydalarının gözlənilməməsi həmin qəsəbədə fəaliyyət göstərən 3 nömrəli tam orta məktəbdə aparılan yenidənqurma işləri zamanı binanın bir hissəsinin çökməsinə səbəb olmuşdu. Hadisə nəticəsində dörd nəfər həyatını itirdi, bir şəxs isə xəsarət aldı. Hacıvarlı şagirdlər, valideynlər növbəti tədris ilində bir qədər çətinliyə qatlaşmalı olsalar da, eyni aqibətin yaşanmadığından qismən toxtaxlıq tapırlar... İnanırıq ki, dövlət idarəçiliyində aparılan islahatlardan sonra aidiyyəti qurumların həssaslığı, diqqətcilliyi daha da artacaq, əvvəlki dövrlərdə yaşanan bədbəxt hadisələr, o cümlədən də maliyyə israfçılığı halları bir daha təkrarlanmayacaq. Ümidvarıq ki, bundan sonra inşaat işlərində layihələndirmə düzgün şəkildə aparılacaq, tikinti norma və qaydalarına tam əməl olunacaq ki, binalarımız Hacıvar kəndindəki kimi vaxtından əvvəl söküntüyə məruz qalmasın ...

✍ **Nail ƏSGƏROV**

# Taxıl biçini uğurla davam edir

*Kənd təsərrüfatında taxılçılığın xüsusi yeri və rolu vardır. Ölkəmizdə istehsal edilən buğda, arpa, qarğıdalı kimi taxıl məhsullarından daha çox daxili istehlak üçün istifadə olunur. Dövlətimiz tərəfindən taxılçılığın dəstəklənməsi məqsədilə fermerlər müxtəlif güzəştlər – texnika və toxum, subsidiya, gübrələr, dərman vasitələri ilə təmin edilirlər ki, bu da taxılçılığın inkişafına geniş imkanlar açır.*

Bu gün muxtar respublikanın iqtisadiyyatı şaxələndirilir. Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə qəbul edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” kənd təsərrüfatının inkişafı, məhsul istehsalının artırılmasında qarşıya mühüm vəzifələr qoyur. Muxtar respublikanın ərzaq təhlükəsizliyində mühüm rol oynayan taxılçılığın inkişafına da böyük qayğı göstərilir. Hazırda muxtar respublikada taxıl biçini davam etdirilir. İyunun 9-da muxtar respublika üzrə mövsümün ilk taxıl biçininə Ordubad rayonunun Dəstə kəndində başlanılmışdı. Məlumat üçün bildirək ki, bu il muxtar respublikada 21 min 247 hektar sahədə taxıl əkilib. Naxçıvan Muxtar Respublikası üzrə 24 iyul 2023-cü il tarixə taxıl biçininin gedişinə dair məlumata əsasən 18888,4 hektar taxıl sahəsi biçilib, məhsuldarlıq orta hesabla 25,2 sentner/hektar təşkil edib. Muxtar respublikanın digər rayonları kimi, Babək rayonunda da taxılçılıqla məşğul olanlar çoxdur. Bölgədə bu



il 6886 hektarda taxıl əkini aparılıb. Artıq 5564 hektar sahə biçilib və 11128 ton məhsul əldə edilib. Taxıl biçini davam edir.

Taxıl biçinini uğurla başa çatdıran rayonun Yarımca kənd sakini, ailə təsərrüfatçısı ***Arif Cəfərov*** uzun illərdir, taxılçılıqla məşğul olur. Qeyd edir ki, muxtar respublikada kənd təsərrüfatı üçün yaradılan şərait, torpağa can yandıran adamlara göstərilən qayğı bizə torpağı əkib, becərməyə böyük ruh verir. Ölkə başçısının müvafiq Sərəncamı ilə 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif olunan Arif Cəfərov göstərilən qayğı hesabına bol məhsul əldə etdiyini dedi. 55 hektar sahədə taxıl əkinini həyata keçirən müsahibim bunun 1 hektar yarımının arpa, qalanının isə buğda təşkil etdiyini, yüksək məhsuldarlığı ilə seçilən “Bezos”, “Konya”, “Ceyhan-99” taxıl sortlarını əkdiyini bildirdi: – Taxıl sahələrinin mütəmadi su ilə təmini yüksək məhsuldarlıq üçün əsasdır. Sahələri suvarmaq üçün Vayxır gölünün suyundan istifadə edirik. Həmçinin yüksək məhsuldarlıq üçün bütün aqrotexniki tədbirlər keyfiyyətlə yerinə yetirilməlidir.

“Taxıl strateji məhsuldur, onun istehsalı kənd təsərrüfatının inkişafına bir nömrəli töhfədir”, – deyən təsərrüfatçı qeyd edir ki, taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinin bol məhsul yetişdirmələri üçün dövlət hər cür şərait yaradıb: – Təsərrüfatçılar üçün ayrılan mineral gübrələr, əkilən sahələrdə ziyanvericilərin qarşısını almaq üçün dərman vasitələri, məhsul istehsalçılarına yanacaq və motor yağlarına görə yardımlar becərmə işlərinin səmərəsini daha da artırır. Ayrılan subsidiya təsərrüfat xərclərini ödəməyə imkan verir. Muxtar respublikada təsərrüfatçılar üçün yaradılan bütün imkanlara görə dövlət başçımıza minnətdarlığımı bildirərəm.

Aqrar sahədə həyata keçirilən tədbirlər kənd təsərrüfatının bütün sahələrinin, o cümlədən taxılçılığın inkişafına hərtərəfli şərait yaradır. Naxçıvanlı taxılçılar da bu şəraitdən maksimum yararlanaraq ölkəmizin ərzaq təhlükəsizliyinə öz töhfələrini verirlər.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Aqrar sektorun inkişafı elmi əsaslar üzərində genişləndirilir



*Muxtar respublikada kənd təsərrüfatının genişləndirilməsinin elmi əsaslar üzərində qurulması dinamik inkişafın bazasını təşkil edir. Aqrar sektorda aparılan islahatlar bitkiçilik, heyvandarlıq və emal sənayesinin inkişafı üçün geniş imkanlar yaradır.*

Azərbaycanın Naxçıvan iqtisadi bölgəsində “Naxçıvan Muxtar Respublikasında aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 10 iyul tarixli Fərmanı tam zamanında qəbul edilən dövlət sənədidir. Muxtar respublikada Kənd Təsərrüfatı Nazirliyinin nəzdində yeni yaradılan Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutu, Naxçıvan Regional Dövlət Aqrar İnkişaf Mərkəzi, Şərur Regional Dövlət Aqrar İnkişaf Mərkəzi, Culfa Regional Dövlət Aqrar İnkişaf Mərkəzi, Naxçıvan Kənd Təsərrüfatı Laboratoriyaları Mərkəzi, “Naxçıvan Aqrar İstehsalat, Tədarük və Təchizat” Açıq Səhmdar Cəmiyyəti muxtar respublikada aqrar sahənin elmi əsaslar üzərində məqsədyönlü inkişafını istiqamətləndirəcəkdir.



Hazırda regionumuzda aqrar sektorun davamlı inkişafı, modern islahatların həyata keçirilməsi, innovativ istehsal sahələrinin yaradılması və digər sistemli hədəflərin reallaşması ölkə başçısının məqsədyönlü siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Son dövrlər muxtar respublikada 65 min hektardan çox ərazidə əkin aparılır. İstifadə olunmayan yararsız torpaq sahələri əkin dövriyyəsinə daxil edilir. Meliorasiya və irriqasiya sistemləri yenidən qurulur. Fermerlərə lizinq yolu ilə texnika və avadanlıqların satışı təşkil olunur. Yeni təsərrüfat sahələri yaradılır. Fərdi təsərrüfatların genişləndirilməsi üçün hərtərəfli şərait yaradılır. Qeyd edək ki, regionda aqrar sektorun dinamik inkişaf etdirilməsi müasir dövrdə iqtisadi bazar münasibətlərinə uyğun sahibkarlıq fəaliyyətlərinin genişləndirilməsi ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalını və emal sahələrini koordinasiyalaşdıran müvafiq dövlət tədbirlərinin həyata keçirilməsi sayəsində mümkündür. Həmçinin muxtar respublikada müvafiq elmi-tədqiqat müəssisələri ilə birlikdə becərilən birillik, ikiillik və çoxillik bitkilər üzrə seleksiya işlərinin elmi şəkildə yenidən təşkil olunması və müasir üsullarla tətbiqyönümlü və iqtisadi əhəmiyyətli yeni sortların yaradılması işlərinin genişləndirilməsi, eyni zamanda koordinasiyalaşdırılması üçün müvafiq “Seleksiya proqramı”nın hazırlanması artıq dövrün tələbidir. Hazırkı dövrdə muxtar respublikada aqrar islahatların daha da genişləndirilməsi, xüsusi təsərrüfat formaları və sahibkarlığın inkisaf etdirilməsi istiqamətində məqsədyönlü işlərin təşkilinin sürətləndirilməsi, aqrar sahədə güzəştli kreditləşdirmə imkanlarının genişləndirilməsi, kənd təsərrüfatı istehsalçılarına subsidiyaların verilməsinə nəzarətin gücləndirilməsinə, onların texnika, gübrə və kimyəvi vasitələrlə təminatında dövlət nəzarətinin artırılmasına ciddi ehtiyac duyulur. Bölgədə əsas problemlərdən olan kənd təsərrüfatında becərilən bitkilərin virus, bakterial, göbələk mənşəli xəstəliklərin və zərərvericilərin müəyyənləşdirilməsi, onlara qarşı kimyəvi, bioloji, aqrotexniki mübarizə tədbirlərinin müasir üsullarla həyata keçirilməsi, təkmilləşdirilmiş aqrotexniki üsullarla ekoloji cəhətdən təmiz olan kənd təsərrüfatı bitkilərinin yüksək məhsuldarlığına nail olunması, suvarmadan maksimum qənaətlə istifadə edilməsi, əkin sahələrində damcı üsulu ilə suvarmanın tətbiqi və genişləndirilməsinə böyük ehtiyac duyulur.

Bölgədə strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına daha çox diqqət yetirilir. Muxtar respublika ərazisinin təbii torpaq-iqlim şəraiti yüksəkkeyfiyyətli çörək bişirilməsi üçün məhsuldar və keyfiyyətli strateji əhəmiyyətli bərk və yumşaq buğda sortlarının becərilməsinə imkan verir. Muxtar respublika ərazisində yayılan və becərilən sənaye əhəmiyyətli dənli, paxlalı, texniki, yem və meyvə, tərəvəz, üzüm və digər kənd təsərrüfatı bitkilərinin genofondunun toplanılması, qorunması, öyrənilməsi, tətbiqyönümlü sortların müəyyənləşdirilməsi, introduksiyası və istehsalata yönəldilməsi yeni yaradılan aqraryönümlü elmi müəssisələrin qarşısında duran əsas problemlərdəndir. Muxtar respublikada yerli məhsullar əsasında yeni emal və konservləşdirilmiş məhsulların istehsalına böyük ehtiyac duyulur.

Regionda əhalinin ət məhsullarına olan ehtiyaclarının dolğun ödənilməsi üçün yemçilik üzrə fermer və ailə təsərrüfatlarının genişləndirilməsinə, həmçinin arıçılıq üzrə ailə təsərrüfatlarının yaradılmasına, cins tərkibinin yaxşılaşdırılmasına tələbat ildən-ilə artmaqdadır.

Muxtar respublikada qədim ənənələrə malik olan baramaçılığın yenidən inkişaf etdirilməsi, bu sahə üzrə ixtisaslaşdırılmış ailə və fermer təsərrüfatlarının dövlət dəstəyi əsasında təşkil edilməsi həm yeni məşğulluq sahələrinin yaradılmasında, həm də əhalinin maddi gəlir mənbəyinin artmasında mühüm rol oynayır.

Muxtar respublikada Kənd Təsərrüfatı Nazirliyinin nəzdində yeni aqraryönümlü elmi təşkilatların yaradılmasını alqışlayır, inanırıq ki, bu müəssisələrin düzgün kadr siyasəti və ardıcıl fəaliyyəti sahəsində qeyd olunan bu və ya digər problemlərin həll olunması həyata keçiriləcək, aqrar sektor ən qısa zamanda özünü tam təmin edən və ərzaq təhlükəsizliyinə real töhfələr verən bir sahəyə çevriləcəkdir.

**Varis QULİYEV**
*aqrar elmlər doktoru*

*Ölkəmizin öncül ali təhsil müəssisələrindən biri olan Naxçıvan Dövlət Universitetində bir çox ixtisaslar üzrə nəzəriyyə və praktikanın üzvi sintezinin aparılması artıq öz bəhrələrini verməkdədir. Onu da qeyd edək ki, ali təhsil ocağının bir neçə prestijli ixtisasında təhsil alanlar universitetin sıx əlaqə saxladığı xarici ölkə ali təhsil müəssisələrində də bu imkanları qazanırlar. Bu sahədə Tibb fakültəsi uğurla fəaliyyəti ilə daha çox seçilir. Bunun ifadəsidir ki, nəzərdə tutulmuş qrafik əsasında bir qədər əvvəl universitetin Tibb fakültəsinin tələbələri qardaş Türkiyə Respublikasının bir sıra nüfuzlu ali təhsil ocaqlarında praktiki təcrübəyə yollanmışdılar və iki həftəyə yaxın bir müddət çəkmiş təcrübə uğurla başa çatıb. Təcrübədə iştirak etmiş professor-müəllim heyəti və tələbələrlə həmsöhbət olub onların bu təcrübə ilə bağlı təəssüratlarını öyrəndik.*

# İstehsalat təcrübəsi maraqlı və yaddaqalan olub




Ali təhsil ocağının müəllimi, professor ***İsa Abdullayev*** söhbət zamanı qeyd etdi ki, Naxçıvan Dövlət Universitetində yüksək səviyyədə qurulan beynəlxalq əlaqələr xarici ölkə universitetləri ilə əməkdaşlıq müqavilələrinin bağlanılmasına, ikili diplom layihələrinin həyata keçirilməsinə, ortaq elmi araşdırmaların aparılmasına şərait yaradıb. Bu əməkdaşlıqlar çərçivəsində universitetimizin professor-müəllim heyəti il ərzində bir sıra nüfuzlu konqreslərə, sammitlərə dəvət olunurlar. Bu tədbirlər içərisində Tibb ixtisası üzrə təhsil alan tələbələrin qardaş Türkiyə Cümhuriyyətinin nüfuzlu universitetlərində keçdiyi ənənəvi yay istehsalat təcrübələrinin də xüsusi yeri vardır. Müsahibimin sözlərinə görə, Naxçıvan Dövlət Universitetində alitəhsilli tibbi kadr hazırlığına 1999-cu ildən başlanılsa da, xarici ölkələrdə istehsalat təcrübələrinin keçirilməsinə 2002-ci ildən etibarən başlanılıb. Müşahidələrimizə əsasən deyirik ki, tələbələrimiz auditoriyalarda əldə etdikləri nəzəri biliklərlə praktikada qazandıqları təcrübəni düzgün və səriştəli tətbiq etdikdə nəticə çox yaxşı və ürəkaçan olur. Bu həm də onların gələcək fəaliyyətinə çox müsbət təsir edir. Diqqətinizə çatdırım ki, mənim rəhbərliyimlə 18 nəfər tələbə və 4 alimin iştirak etdiyi qrup qardaş ölkənin Ankara Dövlət Universitetində olduq. Burada tələbələrimizə yaradılan şərait, həmçinin onlara göstərilən etimad və ən əsası, çətin, məsuliyyətli əməliyyatlarda onların da assistent kimi iştirak etməsi çox təqdirəlayiq haldır.





Fakültənin Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent ***İlhamə Mustafayeva*** bildirdi ki, ötən il ərzində uğurla başa çatan və Naxçıvan Dövlət Universitetinin son illər ərzində qazandığı ən böyük nailiyyətlərdən olan I Beynəlxalq Tibb Forumu yalnız ali təhsil ocağına yox, həm də ölkəmizin səhiyyə sisteminə böyük töhfə qazandırdı. Forum müddətində ali təhsil ocağımız üçün bir sıra layihələr icra olundu, gələcək plan və perspektivlər müəyyən edildi. Ən əsası, qardaş ölkənin nüfuzlu universitetlərindən olan Yedditəpə Universiteti ilə gələcəkdəki geniş əlaqələrə dair memorandum imzalandı. Bu sazişdən sonra sözügedən ali təhsil ocağı ilə Naxçıvan Dövlət Universiteti arasındakı əlaqələr genişləndi. Və qeyd edək ki, qardaş ölkə ilə geniş təhsil siyasətinin bu müstəvidə qurulması Naxçıvan Dövlət Universitetinin əsas prioritet istiqamətlərindəndir.

İlhamə xanım qeyd etdi ki, Yedditəpə Universiteti ilə adıçəkilən memorandumun imzalanması istehsalat təcrübəsinə də müsbət təsir göstərib: – Qeyd etdiyimiz kimi, istehsalat təcrübəsində olduğumuz Yedditəpə Universiteti ilə Naxçıvan Dövlət Universitetinin təhsil əlaqələrinin qurulması artıq ilk bəhrələrini verməyə məhz tibb təcrübəsi ilə başladı. Hətta ali təhsil ocağında olarkən universitetin rektoru, professor Canan Aykut Bingöl geniş bir tədbirdə bu mövzuya toxundu və hər iki ali təhsil ocağı arasındakı əlaqələrdən danışdı. Bununla yanaşı, təcrübə iştirakçıları universitetin tanınmış alim heyəti ilə də görüşdü. Belə ki, universitetin Tibb fakültəsinin dekanı, professor-həkim Sena Ercan, Diş həkimliyi fakültəsinin dekanı, professor-həkim Bahar Eren Kuru, Yedditəpə Universiteti xəstəxanasının professor-həkimləri – mama-ginekoloq Erkurt Attar və həyat yoldaşı Rukset Attarın da tələbələrimizlə olan görüşləri çox maraqlı oldu. Hətta görüşdə çıxış edən alimlərin hər biri Naxçıvan Dövlət Universitetində yaradılan şəraitdən, tələbələrimizin nizam-intizamından, öz sahələrinə olan maraq və istəklərindən ürəkdolusu danışdılar. Təbii ki, bu da həm bir təcrübə rəhbəri kimi, həm də Naxçıvan Dövlət Universitetinin müəllimi kimi məni çox sevindirdi.

İlhamə xanımın sözlərinə görə, Yedditəpə Universitetinin təşkilatçılığı və istəyi ilə bir neçə tələbəmiz çətin əməliyyatlarda da assistent kimi yaxından iştirak ediblər.

Bu, böyük etimad və güvənin nəticəsi idi. Sevindirici haldır ki, əməliyyatlarda assistent kimi iştirak edən tələbələrimiz aktiv iş nümayiş etdirərək, necə deyərlər, başımızı uca etdilər. Hətta Tibb ixtisası üzrə təhsil alan üç tələbəmizin qaraciyər transplantasiyasında iştirak etməsi, həqiqətən də, çox yaxşı nəticələr doğurdu. Onların fəaliyyəti barədə də müsbət fikirlər eşidirdik. Həkimlər deyirdilər ki, Naxçıvan Dövlət Universitetinin Tibb ixtisası üzrə təhsil alan beşinci kurs tələbələri mütəmadi olaraq assistent kimi əməliyyatlarda iştirak edə bilərlər. Tələbələrimizin öz bilik və bacarıqlarını praktiki şəkildə göstərmələri və geniş təcrübə əldə etmələri müxtəlif sahələrdə özünü göstərdi. Belə ki, onlar qruplar şəklində bölünərək Histologiya, Stomatologiya, Anesteziologiya, Ginekologiya və digər şöbələrdə həkimlərlə birlikdə müzakirələr apardılar, professorların göstərişi ilə tibbi müayinələr etdilər. Son olaraq, onu da qeyd edim ki, universitetlə bizi yaxından tanış edən Tibb fakültəsinin dekan müavini, professor Bayram Yılmaz həm də bizə “İnsan fiziologiyası” adlı kitabını hədiyyə etdi. Qeyd edim ki, bu kitab Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələrimiz üçün çox dəyərli mənbə rolunu oynayacaq və inanırıq ki, mütəmadi əlaqə saxladığımız qardaş ölkənin ali təhsil ocaqları ilə dərslik mövzusunda da tərəfdaşlıqlarımız olacaqdır. Son olaraq, bu şəraiti yaratdığına görə dövlətimizə və Naxçıvan Dövlət Universiteti rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Naxçıvan Dövlət Universiteti Xəstəxanasının baş həkimi, dosent ***Elmar Rzayev*** də təəssüratlarını bizimlə bölüşdü: – İyulun 10-da Naxçıvan Dövlət Universitetinin 18 tələbə və 4 müəllimdən ibarət olan digər qrupu isə istehsalat təcrübəsini qardaş Türkiyə Respublikasının Qaradəniz Texniki Universitetində davam etdirdi. Diqqətə çatdıraq ki, universitetimizin geniş əlaqə qurduğu ali təhsil ocaqlarından olan bu universitet həm də Tibb ixtisası üzrə kadr hazırlayan ali təhsil ocağı kimi böyük nüfuz qazanıb. Yaradılan geniş şəraitdən də gördük ki, tələbələrin burada təcrübi biliklər əldə etməsi üçün kifayət qədər imkanlar mövcuddur. Təcrübə müddətində ilk işimiz, təbii ki, Tibb fakültəsinin dekanı, professor Nəşə Kaklıkkaya ilə görüşmək oldu. Görüşdə Naxçıvan Dövlət Universiteti ilə Qaradəniz Texniki Universiteti arasındakı əlaqələr də gündəmə gətirildi və qeyd olundu ki, hər iki universitet arasındakı təhsil əlaqələri bundan sonra da prioritet məsələ kimi qalacaqdır və mütəmadi olaraq keçirilən təcrübi görüşlər gələcəkdə yeni əlaqələrin formalaşmasına da şərait yaradacaqdır.







Elmar həkim təcrübə prosesi barədə də danışdı: – Universitetlə tanışlıqdan sonra Qaradəniz Texniki Universiteti xəstəxanasının baş həkimi, professor Cəlal Təkinbaş ilə də görüşümüz oldu, görüşdə orada fəaliyyət göstərən beynəlxalq sağlıq turizmi barədə məlumat verildi və diqqətə çatdırıldı ki, bu layihə barədə Naxçıvan Dövlət Universiteti ilə də gələcək planlar olacaqdır. Universitet xəstəxanası ilə tanışlıq həm biz müəllimlərdə, həm də tələbələrimizdə çox müsbət təəssürat yaratdı. Diqqətə çatdırım ki, bu xəstəxanada yaradılan Laboratoriya şöbəsi Türkiyədə üçüncü, Avropada isə beşinci yerə malik olan qapalı sistemdə fəaliyyət göstərir. Yəni hər hansısa bir analizin laboratoriya prosesindən keçməsi, bütövlükdə, geniş avtomatlaşdırılmış şəbəkələrə, qurğulara həvalə olunur, burada insan əməyindən çox az istifadə edilir. Bu laboratoriya şəbəkəsi dünya təcrübəsində çox geniş istifadə olunur. Tanışlıq zamanı Texnoloji Uyqulama və Araşdırma mərkəzinə də baxış oldu, burada yaradılan şərait barədə mərkəzin rəhbəri Oktay Yıldız tərəfindən geniş məlumat verildi. Hətta bir qrup tələbəmiz orada tibbi araşdırmalarla məşğul olan, sırf nanotexnologiyaya əsaslanan şöbə ilə də tanış oldu.

Elmar həkim söhbətinə belə davam edir: – Tələbələrimizlə təcrübə prosesində mənəvi istirahətimiz də bizə böyük stimul verdi. Belə ki, təcrübədə olduğumuz ərazi qardaş ölkənin əsas turizm bölgələrindən olan Trabzon şəhərinə daxil idi. Bu şəhər, həqiqətən də, türk mədəniyyətinin qorunub-yaşadılması baxımından çox işlər görüb. Həm də çox müasir şəhərdir. Xüsusən də ekskursiya etdiyimiz “Boztəpə”, “Uzungöl” deyilən yerlər, həmçinin yaşıllıqlar qoynunda yerləşən Rizə maraqlı görünüşü ilə diqqəti cəlb edir. Düşünürəm ki, bütün bunlar tələbələrimizi həvəsləndirmək, onları növbəti illərdə də bu cür layihələrdə birləşdirmək baxımından böyük əhəmiyyətə malikdir.

Naxçıvan Dövlət Universitetinin Nevrologiya ixtisası üzrə II kurs həkim-rezidenti ***Bənövşə Qasımova*** söhbət zamanı bildirdi ki, Tibb fakültəsinin kollektivi ilə iki həftəlik müddətdə Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Yedditəpə Universitetinin xəstəxanasında təcrübə mübadiləsində olub. Sevindirici haldır ki, təhsil aldığım ali təhsil ocağının Türkiyə Cümhuriyyətində olan bir çox xəstəxanalarla mübadilə müqaviləsi imzalanıb. Mən də bir çox tələbə və həkim-rezidentlər kimi bu əlaqədən istifadə etmişəm. Bakalavr təhsilimi də universitetin Tibb fakültəsində almışam və hər il Türkiyənin müxtəlif xəstəxanalarında təcrübə keçmişəm. Bu səfərdə İstanbul şəhərində təcrübə keçmək fürsəti əldə etdim və Yedditəpə Universitetində bizə göstərilən qayğı və diqqət ən yüksək səviyyədə idi.

Xəstəxananın bir neçə şöbəsində olduq. Bütün bu şöbələrdə həkimlər yenilikləri və istifadə etdiyi metodları göstərməyə çalışırdılar. Mən öz şöbəmdə nevroloji xəstələrə necə daha dərindən yanaşıla bilər və ya başqa hansı analizlər istənilə bilər və sair məqamlara diqqət etdim. Bundan əlavə, nevrologiya sahəsi üçün çox önəmli differensial diaqnostika metodları olan EEQ və EMQ cihazlarının çəkimlərində də iştirak etdim. Müalicə üçün hazırda bizim ölkəmizdə istifadə edilməyən yeni nəsil dərman preparatları ilə tanış oldum.

Mən bu fürsəti bizə yaradan dövlətimizə dərin minnətdarlığımı bildirirəm.

Təcrübə prosesində iştirak etmiş bir neçə tələbə ilə də həmsöhbət olduq, onların təəssüratlarını öyrəndik. Tibbi profilaktika ixtisası üzrə V kurs tələbəsi ***Ruslan Rüstəmzadə***nin söylədiklərindən: – Türkiyənin İstanbul şəhərində Yedditəpə Universitetinin Kozyatağı və Koşuyolu xəstəxanalarında Cərrahiyyə şöbələrində 9-21 iyul 2023-cü il tarixlərdə təcrübədə oldum. Assistentlik etdiyim əməliyyatların 90 faizi tiroid sistem xəstəliyinin əməliyyatları idi. Bunu məqsədli şəkildə özüm seçmişdim, çünki II kursdan hər il TEC-in təşkilatçılığı ilə keçirilən elmi işlərim yalnız tiroid vəzinin patologiyaları haqqında olmuşdu. Gələcəkdə də bu istiqamətdə ixtisaslaşmaq üçün peşəmin incəliklərini dərindən öyrənməyi özümə borc bildim. Hər gün planlı olaraq 2 əməliyyatda iştirak edirdim.

Əczaçılıq ixtisası üzrə III kurs tələbəsi S***əma Abdullayeva***nın dediklərindən: – 9-21 iyul 2023-cü il tarixləri arasında Ankara şəhəri, Qazi Universitetinin Əczaçılıq fakültəsində təcrübədə oldum. Əczaçılıq ixtisası üzrə ilk həftə Farmakogeneziya sahəsində, ikinci həftə isə Əczaçılıq texnologiyası sahəsində təcrübədə iştirak edib, yeni biliklər əldə etdim. Həmin sahədəki professor-müəllim heyəti bizimlə yaxından maraqlanaraq yeni məlumatlar öyrənməyimizə, yeni cihazlardan düzgün istifadə etməyimizə köməklik göstərdilər. Orada bizim üçün yaradılan bütün imkanlar son dərəcə yaxşı idi. Bizə yaradılan bu imkanlar üçün minnətdarlığımı bildirirəm.

*Qardaş ölkənin nüfuzlu ali təhsil ocaqlarında təcrübədə olan iştirakçıların bir qismi ilə olan səmimi söhbətimiz onu deməyə əsas verdi ki, istehsalat təcrübəsi, həqiqətən də, maraqlı və yaddaqalan olub. Biz də öz peşəsinə qəlbən bağlı olan tələbə-gənclərimizə uğurlar arzulayır, gələcək həyatlarında, peşə fəaliyyətlərində müvəffəqiyyətlər diləyirik.*

**Məcid RƏŞADƏTOĞLU**

## Turizm Departamentinin internet saytı “GOV.AZ” zonasına köçürülüb




Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin elektron informasiya resursu yeni *“ntourism.gov.az”* domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək yenilənmiş internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, “Google” axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresi ilə təmin ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Kimya-Biologiya Təmayüllü Liseyə qəbul imtahanı keçirilib



Naxçıvan Dövlət Universitetinin Kimya-Biologiya Təmayüllü Liseyinə keçirilən qəbul imtahanında ümumtəhsil müəssisələrinin 7-ci sinfini bitirən 406 şagird iştirak edib. 15 sinifdə aparılan qəbul imtahanı 58 müəllimin nəzarəti altında keçirilib. 3 saat davam edən imtahanda şagirdlərə Azərbaycan dili 15, riyaziyyat 15, ingilis dili 30, kimya 10, biologiya 10, fizika 10, tarix və coğrafiya fənlərindən isə hər biri 5 sual olmaqla, ümumilikdə, 100 sual təqdim olunub. Qəbul imtahanında ən yüksək nəticə göstərən 30 qız və 30 oğlan olmaqla, 60 şagird liseydə təhsil almaq şansı əldə edəcək, nəticələr 3 iş günü ərzində açıqlanacaq.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Bələdiyyə torpaqlarının idarə edilməsi mövzusunda seminar olub



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Hərracların Təşkili üzrə Auksion Mərkəzinin birgə təşkilatçılığı ilə Qaraçuq Kənd Mərkəzində “Bələdiyyə torpaqlarının idarə olunmasında qanunvericiliyin tələbləri” mövzusunda seminar keçirilib.

Seminarda qeyd olunub ki, bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadə olunması qarşıda duran mühüm vəzifələrdəndir.

Torpaqlardan təyinatı üzrə istifadə olunması bu sahədə müsbət nəticələrin əldə olunmasına da zəmin yaradır. Bu baxımdan bələdiyyələrin fəaliyyəti qanunvericiliyin tələblərinə uyğun qurulmalıdır. Bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsi məsələləri Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin və aidiyyəti dövlət qurumlarının diqqətindədir və bu istiqamətdə zəruri maarifləndirmə tədbirləri keçirilir, metodiki vəsaitlər təqdim edilir.

Sonda mövzu ilə bağlı iştirakçıları maraqlandıran suallar cavablandırılıb, metodiki vəsaitlər təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Kənd turizminin inkişafı məqsədilə kənd sakinləri ilə görüş



Şahbuz rayonunun Kükü kəndində kənd turizminin inkişafı məqsədilə kənd sakinləri ilə görüş keçirilmişdir. Tədbirdə giriş sözü ilə çıxış edən Şahbuz Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər üzrə müdir müavini Cəlal Paşayev bildirmişdir ki, muxtar respublikada dövlət səviyyəsində turizm sahəsinə göstərilən diqqət və qayğı bu sahənin inkişafına əsaslı təsir etmişdir. Vurğulanmışdır ki, çox geniş yayılmış kənd turizmi üçün muxtar respublikanın bütün kəndlərində müasir tələblərə cavab verən yüksək şərait vardır. Tarixinin qədimliyi, təbiətinin rəngarəngliyi, mətbəxinin zənginliyi və insanlarının qonaqpərvərliyi kimi müsbət keyfiyyətləri bu kəndlərdə kənd turizminin geniş inkişaf imkanlarından xəbər verir. Əhalinin həyat səviyyəsinin və məşğulluğunun yüksəldilməsi nəticəsində komfortlu həyat tərzinə keçid də sürətlənir ki, bu da xüsusən isti yay günlərində öz tətilini səfalı dağ kəndlərində keçirmək istəyənlərin sayını artırır.

Daha sonra Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və sertifikatlaşdırma sektorunun müdiri Süleyman Rüstəmov çıxış edərək Naxçıvan Muxtar Respublikasının turizm potensialı haqqında tədbir iştirakçılarına məlumat vermiş, bildirmişdir ki, qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Gömür və başqa yaşayış məntəqələri kənd turizminin inkişafı üçün səciyyəvi xüsusiyyətlərə malikdir. Şəhərin səs-küyündən uzaq, fərqli mühitdə dincəlmək istəyənlər, adətən, kənd turizminə üstünlük verirlər. Turizmin bu növü getdikcə populyarlığını artırmaqdadır.

Məruzəçi kənd evində qonaqlama xidmətinin təşkili, bunun üçün tələblər, qonaqların qarşılanması və yola salınması, qonaqların məmnunluğunun təmin edilməsi, qidalanmanın təşkili, ev sahibləri tərəfindən turistlərə göstərilən əlavə xidmətlər və digər mövzular haqqında tədbir iştirakçılarını məlumatlandırmışdır.

Daha sonra Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Saleh Quluyev çıxış edərək müştəri cəlb edilməsində sosial şəbəkələrə xüsusi diqqət yetirməyin vacibliyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Tədbirin sonunda kənd sakinlərini maraqlandıran suallar cavablandırılmış, kənd turizmi haqqında məlumatları özündə əks etdirən buklet təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin mətbuat xidməti***

## Yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilərək yandırılıb



Naxçıvan Muxtar Respublikasının Şərur, Ordubad Rayon Polis şöbələrinin və Naxçıvan Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin əməkdaşları “Xaşxaş 2023” şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçiriblər. Keçirilən tədbir nəticəsində yabanı halda bitmiş 9112 ədəd çətənə bitkisi kolu kökündən çıxarılaraq toplanılıb və yandırılma üsulu ilə məhv edilib. Faktla bağlı İstintaq və Təhqiqat qrupunda araşdırma aparılır.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda “Heydər Əliyev kuboku” uğrunda kikboksinq turniri keçirilib

Yeniyetmə kikboksçular arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda Naxçıvan Muxtar Respublika açıq turniri keçirilib. İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan yarışa rayon və şəhər təmsilçiləri, o cümlədən Türkiyənin İqdır vilayətindən gəlmiş “Yaycı” İdman Klubu olmaqla, ümumilikdə, 6 komanda qatılıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Kikboksinq Federasiyasının birgə təşkilatçılığı əsasında keçirilən turnirdə 54 idmançı iki yaş qrupunda 14 çəki dərəcəsi üzrə mübarizə aparıb.



Turnirin açılış mərasimində Dövlət Himni səsləndirilib. Gənclər və idman nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Məcid Seyidov bildirib ki, Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətinin bütün dövrlərində digər sahələr kimi, idmana da qayğı ilə yanaşıb, idman kompleksləri, sağlamlıq mərkəzləri tikilib. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır.

Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev bildirib ki, idmançıların peşəkar hazırlığı diqqət mərkəzində saxlanılır, yeni karyera istiqamətlərində onlara dəstək nümayiş etdirilir. Kikboksinq Federasiyası da öz fəaliyyət mexanizmini daim yeniləyir, idmançıların vətənpərvər ruhda yetişdirilməsi, peşəkar düşüncəyə və təcrübəyə malik olması yönündə səylərini davam etdirir.

Naxçıvanda özünü ana yurdundakı kimi hiss etdiyini deyən “Yaycı” İdman Klubunun rəhbəri Zəkəriyyə Mərt ölkələrarası dostluq və qardaşlıq münasibətlərinin idman sahəsində də özünü təcəssüm etdiyini vurğulayıb, Türk dünyasının iki görkəmli siyasi xadimi Heydər Əliyevlə Mustafa Kamal Atatürkün, o cümlədən ölkələrin hazırkı liderləri tərəfindən sağlam və əqidəli gəncliyə, idmana göstərilən münasibət bu sahədə də ortaq dəyərlərimizin olduğunu göstərir.

Heydər Əliyev Uşaq-Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər” qrupunun mahnı və rəqs nümunələrinin ardınca yarış final görüşləri ilə davam edib.

2009-2010-cu il təvəllüdlülər arasında Məhəmməd Fərzəliyev (32 kiloqram), Fərdi Əliyev (37 kiloqram), Nurəli Əsgərov (42 kiloqram), Tunar Nəsirli (52 kiloqram), Oğuz Məmmədli (47 kiloqram), Məhəmmədəli Əsgərov (57 kiloqram), Ravil Alməmmədov (63 kiloqram), İsmayıl Hüseynzadə (69+ kiloqram), 2007-2008-ci il təvəllüdlülərdən isə Sinan Kazımov (48 kiloqram), Polad İsmayılov (57 kiloqram), Məhəmmədəli Qasımov (60 kiloqram), Uğur Əliyev (63,5 kiloqram), Məhəmməd Novruzov (67 kiloqram) və Hüseyn Əli Savar (81+ kiloqram) qızıl medal qazanıblar.

Turnirin sonunda ilk üçlükdəki idmançılar mükafatlandırılıblar. Komanda hesabında birinci olan “Turan” Döyüş Klubu “Heydər Əliyev kuboku”na sahib çıxıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Yurdumuzun nemətləri*

## Yay süfrələrinin yaşıl donlu, şirin tamlı neməti

*İlin dörd fəslindən hər biri özünəməxsus gözəlliyi, rəngi, insanlara bəxş etdiyi əhval-ruhiyyə ilə fərqlənir. Hər mövsümün xüsusi bir gözəlliyi vardır. Hazırda yay fəslinin gözəlliklərini yaşayır, nemətlərindən dadırıq. Yay deyilən zaman ağlımıza ilk gələn meyvə-tərəvəz bolluğu olur. Ərik, gilas, qovun, qarpız və digər bir-birindən dadlı, faydalı meyvə və tərəvəzlər...*

Mövsümün ən çox sevilən nemətləri isə bostan məhsullarıdır, xüsusilə qarpız. Su və şəkərdən ibarət olduğu düşünülsə də, qarpızın tərkibində çox zəngin, yüksək qida dəyəri vardır. Naxçıvanın Nehrəm qarpızı olduqca məşhurdur. Bir çox vitamin və minerallarla zəngin tərkibə malik Nehrəm qarpızı ləzzətli olması ilə fərqlənir. Qarpızın becərilmə qaydaları haqqında daha ətraflı məlumat əldə etmək üçün 12 ildən artıq bostançılıqla məşğul olan Babək rayon Nehrəm qəsəbə sakini ***Məhəmməd Sadiqov*** ilə həmsöhbət olduq. Müsahibimiz bildirdi: – İlk vaxtlar qarpız yetişdirməklə özüm məşğul olsam da, sonradan ailə üzvlərimin dəstəyi ilə təsərrüfatımı xeyli böyütdüm. İndi 15 hektar ərazini əhatə edən bostanımızda oğlum, yoldaşım və anam çalışırıq. Təsərrüfatımızda meyvə-tərəvəz, buğda və sair əkin sahələrimiz də vardır. Lakin əsas üstünlük yay mövsümünün vazkeçilməz qidası qarpızdır. Qarpızın yüzlərlə sortları vardır. Belə ki, qarpız digər məhsullara görə nisbətən gec əkilir. Lakin toxumdan asılı olaraq, tezyetişən sortlar 75-80, orta yetişən 85-100, gecyetişənlər isə 100-120 günə yetişir. Əkin zamanı qarpızın toxumunu birbaşa sahələrə əkir və ya şitil üsulu ilə də becəririk. Həmçinin bostan bitkilərindən yüksək məhsul götürülməsi qulluq işlərinin vaxtında və düzgün yerinə yetirilməsindən asılıdır. Bostan bitkilərinə düzgün qulluq məhsul üçün mühüm əhəmiyyət daşıyır. Suvarma, alaqlama, seyrəltmə, dibdoldurma, gübrələmə, tağların kökləndirilməsi, ucvurma, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri aqrotexniki qaydalara uyğun vaxtlı-vaxtında aparılmalıdır. Tədarük zamanı isə yetişməyə, təxminən, 3-5 gün qalmış 2-3 santimetr uzunluqda saplaq saxlamaqla yığılmalıdır. Oğlum Elman gələcəkdə sahələrimizi daha da böyütmək arzusundadır. Anam isə yaşının 75-dən çox olmasına rəğmən torpaqdan, əkindən ayrıla bilmir: “Gənc vaxtlarımdan bəri üzümçülük, taxıl, pambıq əkinlərində çalışmışam. İndi isə öz bostanımızda ailə təsərrüfatımıza dəstək oluram”, – deyir.



Qarpızın faydaları barədə Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasının həkim-terapevti ***Ramidə Bağırova*** deyir ki, elə bir adam olmaz ki, qarpızı sevməsin. Elə insanlar var ki, mövsüm boyu qarpız onların qida rasionunda hər gün yer alır.



Qarpız bədəni zərərli toksinlərdən təmizləyir, qaraciyəri yeniləyir, böyrəyin funksiyalarını yaxşılaşdırır. Qarpızın tərkibində olan likopen maddəsi xərçəngə qarşı immun sistemini qüvvətləndirir. Likopen antioksidant xüsusiyyəti sayəsində toksinlərin sağlam toxumalara və orqanlara bağlanmasını əngəlləyir. Qarpızın tərkibində olan A və C vitaminləri saçları və dərini qidalandırır. Yüksək miqdarda sudan ibarət olması saçlara müsbət təsir göstərir. Kalium və maqnezium miqdarı təzyiqi aşağı salır. Qan damarları və arteriyalardakı gərginliyi azaldır. Qarpızın qabığı, tumları da insan orqanizminə müsbət təsir göstərir. Lakin faydası olduğu qədər, günlük miqdardan artıq yeyilən zaman çəki artımı və başqa bir çox zərəri də ola bilər. Qarpız zəhərlənməsi qida zəhərlənmələri arasında ən təhlükəlisi sayılır və bunun fəsadları uzun müddət davam edir. Qarpız zəhərlənməsi zamanı insanda qəfil halsızlıq, soyuq tər, təzyiqin qəfildən düşməsi kimi hallar müşahidə edilir. Mütəxəssislər, hətta qarpız zəhərlənməsi zamanı zərərçəkəndə bir sıra fəsadların qaldığını deyir. Bəzən qarpızların içinin qırmızı çıxmasına və necə deyərlər, “bal kimi” dadmasına baxmayaraq, qarpızı yedikdən bir müddət sonra zəhərlənmə baş verir ki, buna da səbəb yetişdirilmə zamanı tərkibinə vurulan gübrələr və dərmanlardır.

Bir sıra mütəxəssislər avqust ayının 10-15-nə kimi, xüsusilə də qarpızla qidalanmaqdan ehtiyatlı olmağı tövsiyə edirlər.

Qarpızın süfrələrimizdə xüsusi bir yeri vardır. Qabaqkimilər fəsiləsindən olan bu bitki cinsinin Azərbaycanda 35-ə qədər sortu mövcuddur. Naxçıvan mətbəxində də geniş yer tutan qarpızdan mürəbbə, marmelad hazırlanır, yetişməmiş halından isə turşu qoyulur. Qarpız xüsusi qaydada saxlanılır və çillə ərəfəsində bayram süfrələrinə gözəllik qatır. Çillə qarpızı nişanlı qızlarımızın xonçalarında xüsusi yer tutur. Əsrlərə söykənən bu milli adətimiz günümüzdə də davam etməkdədir. Yay mövsümünün bu əvəzsiz məhsulu iyun ayının ortalarından etibarən satışa çıxarılır. Arzumuzdur ki, hər ötən il bazarlarımız daha da çox qarpız, qovun kimi dadlı-tamlı giləmeyvələrlə dolu, süfrələrimiz isə bərəkətli olsun.

**✍ Sürəyya QƏDİMƏLİYEVA**

### *İtmişdir*

Culfa rayonunun Ərəzin kəndində yaşamış Qeybullayev Xəlil Hüseynalı oğlunun adına olan JN-219$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Bayramova Mələk Cəfər qızının adına olan JN-1271$^{A}$ nömrəli, 10300058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Quliyeva Aluzər Vaqif qızının adına olan 227$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Oğlanqala kənd sakini Kərimov Əhməd Cəlil oğlunun adına olan JN-645$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair” şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 441